Ədəbiyyat qəzeti

# Bu ağacın kölgəsində bir gözəl şeir yatıb...

## Gecə fantaziyası

...O kimdi oturub ay işığında,
Gecənin rəsmini çəkmək istəyir?

Ayın da gümüşü saçları, sanki
Gecənin çiynindən axır çay kimi...

Bu gecə - elə bil qara pərdədi,
Asılıb o qızın pəncərəsindən.

...O qədər kövrəyəm, açıb qolumu,
Bir quru yarpağı qucmaq istədim...

Çıxarıb əynimdən boz pencəyimi,
Üşüyən ağacın çiyninə atdım...

Bu gecə - tənha bir qayıq kimidi, -
Qaranlıq su kimi dolub içinə...

...Hardasa uzaqda kaman ağlayır, -
İçimə tökülür hıçqırıqları...

Gecənin dizinə qoyub başını,
Bir kaman ağlayır məndən o yana, -
Hardasa, hardasa bir az uzaqda
Yoxsa bir nəğməni güllələyirlər?!

...İlahi, deyəsən üşüyür gecə,
Bəlkə də getməyə yer tapa bilmir? -
Gəlsin, gözlərimdə gecələsin qoy,
Gəlsin kirpiyimlə örtüm üstünü...

## Səndən sonra

Yazıb, sonra itirdiyim
Ən gözəl əsərimsən.
Dünən ilk sevgim idin,
Bu gün son kədərimsən.

Ayrılıq sularında,
Sığındığım bərəmsən.
Bu vəfasız dünyada,
Vəfalı xatirəmsən...

Bəlkə də günahkaram,
Bəlkə də günahımsan.
Özümü vurmaq üçün
Sonuncu silahımsan.

Xəyalınla qoşayıq,
Xoş gündə, ya çətində.
Düşən nəbzimdə varsan,
Qalxan hərarətimdə.

...Qayıt gəl, Günəş kimi,
İşıq gətir bir udum.
Gəl, yoluna sərdiyim
Ürəyimi qurudum...

## Bir qədəh xatirə süz...

Bir qədər xatirə səp
Yediyim bu acıya.
Bir qurtum xatirə ver,
Nəfəsimi isladım...

...Niyə bütün qürublar,
Elə üzü bəridir?
Hər ömür - bir sevginin,
Xatirə dəftəridi...

Qolumdakı bu saat,
Bəlkə vaxtın qandalı?
Soba sönüb evimdə,
Bir xatirə yandırım...
Qonum ötən günlərə,
Kaş bircə gün quş olum.
...Bir qədər xatirə süz, -
Bu gecə sərxoş olum...




...Doldurmuşam ömrümə, -
Nə olsun ki, bir azdı? -
Bəlkə hər bir xatirə
Bir sevgidən mirasdı?!

...Götür bir nəğmə ağla,
Götür könül sazını, -
Xatirələr sarıyar
Eşqlərin yarasını...

## Qadın

Ürəyin gül dərsin, əllərin şeir,
Apar o qadının saçlarına tax...

Əgər gözlərində günəş istəsən,
Çəkəndə isti çək qadın rəsmini...

Qadın nəfəsini bir az isti çək,
Soyuqda bu rəsmi üstündə gəzdir!..

Sevgidən yazdığın şeirlərini,
Qadın dodağıyla qafiyələndir...

...Hər kişi dərdini yaş paltar kimi,
Qadın əllərindən asıb qurudur...

Gündüz gün kimidi, gecə ay kimi, -
Sənin bu yerdəki göy üzündü O...

Dözməyib qadının ağlamağına,
Tanrı da o gündən yağış ağlayır...

Bu gün o qadına əl qaldırırsan,
Sabah əllərindən utanacaqsan...

Bir gün əllərindən utanacaqsan, -
Başqa bir qadının hədiyyəsiylə
Başqa bir qadına şeir yazanda...

## Nəğmə

Hərə bir rəng aşiqidi,
Mən də su rəngini sevdim.
Səsinlə dodaqlarının
Uyan ahəngini sevdim.

Şahlar öpdü taclarını,
Xəstələr əlaclarını.
Çiynindəki saçlarını
Sevən səhəngini sevdim...

Əl atmadım ətəklərə,
Eşq daşıdım pətəklərə...
Bənzətmədim mələklərə, -
Mən səni sən kimi sevdim...

## Çətin səndən sonra bu şəhər qala...

Tüstüsü içində boğulan damam,
Dünən oğlum idim, sabah atamam...
Mən paxıl adamam, paxıl adamam, -
Qoymaram kiməsə bir kədər qala.

Dünyanı böldün ki, belə kəm düşə?!
Payıma eşq adlı bir aləm düşə.
...Mənim dodağımdan hərdən nəm düşə, -
Sənin yanaqların hələ tər qara.

Düşür gül ömürdən hər gün bir ləçək...
Gətir əllərini, - üşüyür ələk
...Bilirəm, harasa köçüb gedəcək, -
Çətin səndən sonra bu şəhər qala...

## Bir ovuc suyun da ləpələri var...

Bir dəfə sevinci yuxuda gördüm, -
Demə, yuxu imiş xumar dediyin.
Hər gün saçımdadı dərdin əlləri, -
İlahi, budurmu tumar dediyin?!

Bir ovuc suyun da ləpələri var,
Sinəmdə bir eşqin qəlpələri var...
Bu ömür yolunun təpələri var, -
Hara yoxa çıxdı hamar dediyin?

...Mən burda tənhaydım, sən orda təkdin,
Milyon əl uzanan geniş ətəkdin.
İlahi, yer üzü bəlkə ürəkdi, -
Bəlkə bu yollardı damar dediyin?

Min ildi o qıza gedirəm hələ,
O uzaq ulduza gedirəm hələ.
Uduza-uduza gedirəm hələ, -
Bəlkə bu ömürmüş qumar dediyin?!

## Sevgi məktubu

Hardasan, şəhlagözlüm, -
Sən nə şirin acımsan?!
Hələ də bilmirəm mən,
Dərdimsən, əlacımsan?

...Niyə yoluma çıxdın, -
Düşdüm "yol qazısı"na?!
Haçandı söykənmişəm,
Ümidin əsasına...

Yuxuma dağıtmısan,
Saçının yumşağını.
Sən yoxsan, kim böyütsün,
Bu sevda uşağını?

Yol tapıb çıxa bilmir,
Bu tinim, bu dalanım.
Mən sevgi qaçqınıyam,
Gəl, səndə daldalanım...

Düşmüşəm bu çöllərə,
Bu çöllər - azmaq üçün...
Ürəyim bir divarmış,
Rəsmini asmaq üçün.

Bir körpə ürəyim var,
Ağlayır qundağında.
Arzularım can verir,
Kədərin qucağında...

Düz sözə inanan yox,
Nə tapım ki, subutçün?
Bir ömür yaşayırıq,
Bir dəqiqə sükutçun...

Hardasan, - hardan bilim,
Mən hara üz döndərim? -
Darıxmağın rəsmini,
Çəkib sənə göndərim...

Özün uzaqlardasan,
Kölgən keçir yanımdan.
...Adına soyuq dəyər, -
Düşmə dodaqlarımdan...

## Göz yaşı rəsmi

Bir körpə dilənir yol qırağında,
Elə utanır ki, açıq əlləri...

Qısılıb o uşaq soyuq divara,
Bəlkə də dərdinə qısılıb elə...

...İlahi, o əllər ağlayır axı, -
Bəlkə o əlləri ovudaq bir az...

...Kədərin rəsmini kim çəkə bilir?
O körpə uşağın əlini çəksin,
Çəksin o uşağın göz yaşlarını...

...Ağlayan lap bircə uşaq da varsa,
Silin təbəssümü dodağınızdan.

Yığın bu dünyanın təbəssümünü
O yetim uşağa bir libas tikin...

...Bir uşaq dilənir yol qırağında
Elə üşüyür ki, körpə əlləri...

Bir sərgi düzəldin, - kədər sərgisi,
Çəkib o əlləri sərgiyə qoyun.

Çağırın sərgiyə fələk də gəlsin,
Elə o əllərlə döyün fələyi...

...Bir körpə ağlayır yol qırağında, -
Bəlkə də göyərdi yolların tozu...

...Bir az içinə çək öz nəfəsini, -
Durub dinlə, göz yaşının səsini...

...Bir uşaq dilənir yol ayrıcında,
Üşüyür ovcunda xırda pulları...

## Məni payız doğub anamdan qabaq

*55 yaşıma*

Əlli beş nədir ki... yoruldum ancaq
Girdim lil sulara, - duruldum ancaq.
Yarpaq olmasam da, qırıldım ancaq, -
Məni payız doğub anamdan qabaq.

İçimdə üşüyən xəzələ neynim?
Qəlibə düşməyən qəzələ neynim?
Payızı sevməyən gözələ neynim, -
Məni payız doğub anamdan qabaq...

İlahi, o bulud nə ağlağandı?
Buludun xətrinə dəymə, amandı!

Ədəbiyyat QƏZETİ
31 oktyabr / 2020

Bəlkə bu yağış da məndən yağandı?!
Məni payız doğub anamdan qabaq...

Mən payız adamam, sən gənc bir bahar
Getsən gözlərimi özünlə apar...
...Sən bir nar çiçəyi, mən çatlamış nar...
Məni payız doğub anamdan qabaq.

Bu ömür - əlli beş ağaclıq meşəm,
Dünyanın küncündə darıxır köşəm...
Payızın bətninə necə düşmüşəm, -
Məni payız doğub anamdan qabaq...

## *Ağac kölgəsində şeir*

...Geyib bir qız bədənini
Bu ağacın kölgəsində
bir gözəl şeir yatıb...

Kölgəsində bir qız yatıb, -
bu ağac xumarlanıb...
o qızın dodaqlarından
təkcə meyvələr deyil ki, -
yarpaqlar da ballanıb...

Bu ağacın kölgəsində
bir gözəl şeir yatıb...
Bu şeirin canında da
misra-misra budaqlar.
...Bir-birinə nə yaraşır
O şah beyti dodaqlar...
...Bu şeirin yaxasında
Əriyir barmaqlarım...

## *Payız adam*

İçimdə nimdaş kədər.
Əynimdə nazik payız, -
Üşüyürəm, ay ana.

Sinəm ağrıyır bir az, -
Dərdi üst mərtəbəyə,
Daşıyıram, ay ana...

Mən sevdiyim o yarpaq,
Yelə qoşuldu qaçdı...
...İndi o yarpaqsız ağacı qucub
Yaşayıram, ay ana...

## *İndi yuxuların butası yoxdu...*

Səninlə bu dünya gül düzü imiş,
Gündüz-gül üzünün gündüzü imiş...
...Ayrılıq sevginin tüstüsü imiş, -
Çəkib ciyərimə bu ayrılığı,
Daha öyrəşirəm havasızlığa...

Bu ürək - sinəmdə çatlayan şüşəm...
Yaddan çıxartdın ki, yadına düşəm?!
Saçına sığalı mən öyrətmişəm, -
İndi bu yellərin üstünə atıb,
Öyrətmə saçını vəfasızlığa...

Daha yuxuların butası yoxdu...
Odla oynayanın odası yoxdu.
Bənövşə boynunu elə büküb ki,
Elə bil onun da atası yoxdu, -
Bəlkə mən götürüm onu qızlığa?!

## *Ürəyində bir şam yandır...*

Bir gün məni soruşarsan, -
Məni unutduğun yerdən...
Ürəyində bir şam yandır,
Adımı tutduğun yerdə...

Dünya birdi, bir neçədi?
Ömür bəlkə bilməcədi?
Göz yaşların gölməçədi, -
Məni ovutduğun yerdə.

Geri çağır o halını,
Uçub gedən xəyalını...
...Ölüm siləcək xalını,
Dünyanı udduğun yerdə...

## *İlahi, nə gözəl ağlayır o qız...*

Bu güllər içində o gül birərdi...
Onun bildiyini gül nə bilərdi?
İlahi, nə gözəl gülə bilərdi, -
İlahi, nə gözəl ağlayır o qız...

Bəlkə o çağadı, - yer bələyindi?
O qız balan deyil, onda nəyindi?
Bəlkə bu dünyanı ağlayır o qız, -
İlahi, bəlkə o, son mələyindi?!
İlahi, nə gözəl ağlayır o qız...

İlahi, ona da bir az vaxt ayır,
Kirpiyi ucunda qəm salxımlayır...
Sıxıb sinəsinə tapdığı dərdi
Bəlkə itirdiyi eşqi ağlayır, -
İlahi, nə gözəl ağlayır o qız?!

...İndi neynəsin ki, o naşı gözəl?
Hardan tapıb belə nəqqaşı gözəl?!
Gözəl gözlərində göz yaşı gözəl,
İlahi, nə gözəl ağlayır o qız...

Yarpaq əllərin də xəzəli varmış...
Bəlkə bu yazıda öz əli varmış?
Sən demə, qəmin də gözəli varmış, -
İlahi, nə gözəl ağlayır o qız...

Kim imiş o qıza silləsin çəkib?
Çəkir, ürkə-ürkə nəfəsin çəkir...
İlahi, bəlkə də ağlamır o qız, -
Dərdin ad gününə bir rəsm çəkir?!

O neynər bu boyda ahla, ilahi?
O ahın yolunu bağla, ilahi...
Yağan yağışları saxla, ilahi, -
Bir bax gör, - nə gözəl ağlayır o qız...

## *Bir azdan gecəni əridər bu şam...*

Mən dedim, - bu dünya sığsın içimə, -
Amma deməmdim ki, dünya dar olsun...
Mən sənin üzünə sevdim dünyanı, -
Qoy, dünya üzünə minnətdar olsun!..

Dağda lalələri bəlkə qan çəkir?
Damlanın dərdini bir ümman çəkir...
Şirəni güldən yox, tikandan çəkir, -
Belə bir "arı"ya bəlkə ar olsun?!

Bu gün göy üzündən qovulmuş quşam...
Bir azdan gecəni əridər bu şam...
Bu ölüm yolunda bir can qoymuşam,
Qoydum ki, məndən də yadigar olsun...

Mən çaxmaq daşıyam, bu daşı yandır,
Kül olmaq istəyən bu nəşi yandır...
...Sən gəl əlindəki günəşi yandır, -
Qoyma əllərimi belə qar olsun.

...Sən özün yazmısan, - nə silsən belə...
Hər yerdə sən varsan, - nə sirsən belə?
İlahi, bəs niyə susursan belə, -
Yoxsa istəyirsən dünya kar olsun?!